***UOT-811.512.162***
***Səhifə: 183-187***
*https://doi.org/10.59849/2663-8967.2023.1.183*

***Aygün Əhmədova***
***Gəncə Dövlət Universiteti***

# TOFİQ HACIYEV VƏ ƏDƏBİ DİL TARİXİNİN ƏSAS TERMİNLƏRİ

***Açar sözləri:*** *ədəbi dil, norma, üslub, usuz, bədii dil, elmi üslub.*
***Ключевые слова:*** *литературный язык, норма, стиль, простой, художественный язык, научный стиль.*
***Key words:*** *literary language, norm, style, simple, artistic language, scientific style.*

Azərbaycan dilçiliyinin aktual problemlərinin araşdırılmasında akademik Tofiq Hacıyevin mühüm rolu olmuşdur. Çoxşaxəli və məhsuldar elmi yaradıcılığında Azərbaycan ədəbi dili və onun tarixi məsələləri xüsusi yer tutur. Tofiq Hacıyevin elmi yaradıcılığında bir-birini tamamlayan müxtəlif istiqamətlər diqqəti cəlb edir. Azərbaycan ədəbi dilinin tədqiqi və türkologiyanın aktual problemlərinin araşdırılması alimin yaradıcılığının ana xəttini təşkil edir. Xüsusilə, Azərbaycan ədəbi dilinin tarixi onun elmi yaradıcılığının aparıcı qollarından birini təşkil edir. Ədəbi dilin tarixi ilə bağlı "Azərbaycan ədəbi dilinin tarixi" iki cildlik , "Satira dili", "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili", "Sabir: qaynaqlar və sələflər", "Molla Nəsrəddin"in dili və üslubu", "Kitabi-Dədə Qorqud"un dili, "Azərbaycan ədəbi dilinin yazılı dövrü (İnkişaf mərhələləri haqqında)", "XIII-XVI əsrlər ədəbi dili", "XVII-XVIII əsrlər ədəbi dili", "XIX əsr ədəbi dili", "XX əsrin əvvəllərində ədəbi dil" monoqrafiyaların müəllifidir. Tofiq Hacıyevin çoxşaxəli yaradıcılığında Azərbaycan ədəbi dili və onun tarixi məsələlərinin ən aktual problemlərinin araşdırılması xüsusi yer tutur. Apardığı tədqiqatlar dilimizin tarixi inkişaf mərhələlərini öyrənmək baxımından ciddi rol oynayır. Öz dəsti-xətti ilə seçilən, ardıcıl və səmərəli elmi fəaliyyəti ilə filologiya elmimizdə özünəməxsus məktəb yaratmışdır. XX əsrin əvvəllərinin Azərbaycan ədəbi dilinin araşdırılmasına həsr olunmuş doktorluq dissertasiyası bu dövrün dil xüsusiyyətləri təhlil edilmişdir. Ədəbi dil tarixinin təşəkkülü, formalaşması və inkişaf dövrləri T.Hacıyev monoqrafiyalarında şərh olunmuşdur. Azərbaycan ədəbi dilinin inkişaf istiqamətləri, qədimliyi, eləcə də elmi yeniliyi ilə seçilən bir sıra mühüm elmi fikirləri zəngin faktlarla əsaslandırılmışdır. Ədəbi dilin əski leksik qatlarının tədqiqi ilə də ciddi şəkildə məşğul olmuş və bu sahədə ilk qələm təcrübəsi olan "Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü)" adlı dərslik-monoqrafiyasını nəşr olunmuşdur. Müəllif milli düşüncə sisteminə söykənərək xalqımızın və onun dilinin qədim tarixi ilə bağlı bir sıra ciddi müddəalarını irəli sürmüşdür. "Ədəbi dil" termininin bir anlayış kimi sərhədləri müəyyənləşdirilir, "danışıq dili" anlayışı, eləcə də "dialekt və şivələr" onların dil xüsusiyyətləri, "loru danışıq" anlayışlarına aydınlıq gətirilir. Müəyyən normativ tələblərə cavab verməyən, ümumi kütləvi xarakterə malik ümumxalq danışıq dili loru dil hesab edilir. Qeyd edilir ki, dilçilikdə ümumdanışıq dilində bütün dialekt və şivə zonalarını özündə birləşdirdiyinə görə dialektfövqü hadisə sayılır və loru dilinin sinonimi kimi işlədilir. Müəllif tərəfindən bu fikir tənqid edilir və danışıq dili xarakterizə edilərək yazılır: "Bu qəti yanlışdır. Danışıq dili ümumxalq dilinin tərkib hissəsidir. Onun bir qoludur. Nəzərdə tutmaq lazımdır ki, xalq danışıq dili anlayışı bir növ sinkretikdir. Müxtəlif nitq şəraitində onu müxtəlif məna və danışıq dili xarakterizə edilərək yazılarda işlətmək olur. Xalq dili müəyyən ictimai-etnik kollektivin dilinin konkret tarixi mərhələsindəki adı kimi düşünülə bilər; Bu halda o, tayfa dili, milli dil (yəni millətin dili ) anlayışları silsiləsində bir həlqəni təşkil edir. Bu son ifadə əslində ədəbi dili yaradarkən icra olunmuş seçmə dövründə geniş kütlənin öz dilini bir qrupun – ziyalıların, kübarların, sarayın nümunəvi sayılan dilinə qarşı qoyması ilə bağlıdır." (1. s.27) Bununla da "danışıq dili" anlayışı

şərh olunmuşdur, danışıq dili ümumxalq dili ilə müqayisə edilmişdir. "Ümumxalq dili" məfhumu "xalqın dili" məfhumu ilə eyniləşdirilsə də onun əsas tələbləri təyin edilir. Ümumxalq dilinin müəyyən normalara tabe edilməsi, normativ tələblər çərçivəsində fəaliyyət göstərən qolu ədəbi dil hesab edilir və yazılır: "Ədəbi dil xalq dili əsasında seçmə və əvəzetmə əməliyyatı ilə meydana çıxır." (1. s.26) Tədqiqatda ədəbi dilin fonetik, qrammatik, sintaktik normaları və ona verilən tələblər, seçmə və əvəzetmə əməliyyatlarına verilən tələblər şərh olunmuşdur. Bu əməliyyatın müxtəlif üslublarda əksi məsələləri və əsas səciyyəvi əlamətləri müəyyənləşdirilir. Aydın olur ki, ədəbi dil ümumxalq dili əsasında yaranır, ədəbi dil üçün zəngin material verir. Ədəbi dil dialekt-şivə ümumdanışıq faktları əsasında seçmə əməliyyatının aparılma yolları, mahiyyəti bu anlayış haqqında tam təsəvvür yaradılır. Bununla yanaşı ədəbi dilin əsasında dayanan dialekt isə "koyne" hesab edilir. Koyne dialekt anlayışının özü də ədəbi dilin müəyyənləşməsində aparıcı olması nəzəri baxımdan əsaslandırılır. Tofiq Hacıyev tərəfindən iqtisadi-siyasi, elmi-mədəni cəhətdən inkişaf etmiş, mərkəz sayılan əyalətin dialektinin ədəbi dilin formalaşmasında rolu məsələləri, başqa dialektlərlə fərqi izah edilir. Koynenin leksik baxımdan başqa dialektlər baxımdan zəngin olması, dialektfövqü xüsusiyyətləri özündə birləşdirməklə yanaşı öz xüsusiyyətlərini saxlaması və ədəbi dildə bu xüsusiyyətlərin cəmlənməsi xüsusi qeyd edilir. Ədəbi dilin əsasında bir dialektin durması təsdiq edilsə də, dialektfövqü faktların seçilməsi də inkar edilmir. Tədqiqatda "ədəbi dil" anlayışının müxtəlif terminlərlə ifadə olunması, onun ifadə etdiyi məzmunun dərkində vahid fikir olmaması da alim tərəfindən təhlil edilmişdir. Rus dilçiliyində, eləcə də Azərbaycan dilçiliyində bu anlayışın "ədəbi dil", fransız, italyan, amerikan mənbələrində "dil standartı", "standart dil" , alman dilçiliyində "yazılı dil", çex dilində "ümumi dil", "vahid dil" terminləri işlənsə də məzmun eynidir. Ədəbi dil anlayışı məzmun cəhətdən fonetik, orfoqrafik, leksik, qrammatik cəhətdən normalaşdırılmış dil nəzərdə tutulur. T.Hacıyev yazır: Bizim haqqında danışdığımız ədəbi dil insanların müəyyən inkişaf səviyyəsində, müəyyən mədəni yüksəlişin məhsuludur, dövlətlərin yaranması, dövlətlər arasında yazışmaların başlanması, ümumiyyətlə, yazılı nitqin qeydə alınması ilə ictimai-mədəni hadisə kimi ədəbi dil müəyyənləşir. Ədəbi dil deyəndə, ümumən, yazılı dil nəzərdə tutulub. Bu doktrina xalqın folklor dilini ədəbi dil kimi istisna etmiş olur." (1, s.15). Tofiq Hacıyev tədqiqatlarında ədəbi dilin tarixini daha qədimdən götürür. Bu fikrini sübut etmək üçün zəngin faktlar gətirir. Qeyd edir ki, ədəbi dil həmişə, hətta xalq dilinin təşəkkülünün əvvəlində də, tayfa dili-dialekt dilində də təzahür formaları olmuşdur. Əmək və mərasim nəğmələrinin dil nümunəsi kimi xalq yaradıcılığının formalaşması, diferensial xüsusiyyətlərin yaranması eləcə də tayfa və etnik qruplarda mövcud olan şifahi qolun müqabilində ədəbi dilin yazılı qolu yaranmışdır. Alim yazılı ədəbi dili xalq birliyinin əmələ gəlməsi dövrü ilə əlaqələndirir. Bunun səbəblərini aydınlaşdıraraq yazır ki, yazılı ədəbi dilin inkişafı yazının, əlifbanın yaranması, yəni onun əldə olunması üçün yüksək inkişaf səviyyəsi mövcud olmalıdır. İnkişaf səviyyəsi isə müxtəlif tayfaların siyasi təmərküzləşməsi, dialekt dillərin qarşılıqlı təması ilə formalaşır və ədəbi dilin koyne bünövrəsi hazırlanır. Dilçilikdə "ədəbi dil" anlayışı ilə yanaşı "ədəbi dil tarixi" anlayışı və ona münasibətin müxtəlif olmasının səbəbləri də verilir. Bu səbəblərin müəyyənləşdirilməsi ədəbi dilin tarixinin də aydınlaşdırılmasına imkan yaradır. Daha doğrusu ədəbi dilin hansı vəzifəni yerinə yetirməsi, hansı səciyyəvi xüsusiyyətlərə malik olması bu terminin dəqiqləşdirilməsi ilə də bağlıdır. Bunun üçün ədəbi dilə verilən tələblərə tədqiqatçıların münasibəti təhlil edilir. A.B. İsaçenkonun ədəbi dilə verilən çoxvalentlik, normalılıq, milli kollektivə verilən məcburi tələblər, üslubi diferensiallaşma kimi məsələlər önə çəkilsə də tədqiqatçı tərəfindən tənqid edilir. Qeyd edilir ki, bu tələblər ədəbi dilin ən yüksək dövründə yerinə yetirilə bilər. İrəli sürülən bu mülahizə, yəni müəllif tərəfindən ədəbi dilin tarixi anlayışı millətin yaranması və milli dilin formalaşması dövründən qəbul edir. A.B. İsaçenko ədəbi dil tarixini yazılı dil dövrü ilə əlaqələndirir və şifahi ədəbi dilin inkişafını ədəbi dilin tarixindən tamamilə ayırır. (3,s.28) Bu mülahizəni tənqid edən müəllif ədəbi dilin tarixini daha qədim dövrlərdən şifahi ədəbi dilin mövcudluğu dövründən hesab edir. T.Hacıyev yazır: "Şübhəsiz ki, cəmiyyətin tərəqqisi ilə bilavasitə əlaqədar olan ədəbi dil onun tarixi inkişafı ilə mütəmadi təkamüldədir, gələ-gələ daha mükəmməl mərhələlərə çatır. Millətin meydana gəlməsi, formalaşması ictimai kollektivin tarixində bütün keçmiş keyfiyyətlərin ümumiləşməsi əsasında baş versə də bir çox yeni elmi, mədəni, texniki eyni zamanda, ictimai-siyasi faktorların

yaranması ilə də əlamətdardır."(1, s.29) Ədəbi dil alim tərəfindən tarixi kateqoriya kimi nəzərdən keçirilmiş və ədəbi dil ictimai-tarixi hadisələrlə bağlı inkişaf etməsi əsaslandırılır. Ədəbi dilin formalaşmasında Tofiq Hacıyev normanı əsas hesab edir. Normanın yaranması ədəbi dilin yüksək inkişaf mərhələsi ilə, xalqın daha yüksək ictimai-sosial səviyyəsi ilə əlaqədar olduğu verilir. Ədəbi dildə norma anlayışı izah edilən zaman "uzus" terminine də aydınlıq gətirilir. Bəzi hallarda norma əvəzinə uzus termini işlənməsi tənqid edilir. Dilçilikdə ədəbi dillə bağlı yazılmış tədqiqatlarda norma əvəzinə uzus termininin işlənməsi məqbul hesab edilmir. Qeyd edilir ki, uzus termini nəzərdə tutulan anlayışı ifadə etmir, həm nitq, həm norma, həm də aparıcı üslub mənalarda işlənərək çoxmənalılıq yaradır. Uzusun nitq aktı ilə birlikdə normanı yaratması, eləcə də norma ilə üzusun məcmusunun ədəbi dilin varlığının əsas şərtlərindən hesab edilir. Normanın ədəbi dildə geniş mənada işlənməsi xarakterizə edilərək yazılır: "Norma geniş mənada xalq dilində, yəni bütövlükdə dilin özündə mövcuddur. Bunsuz ünsiyyət saxlamaq, kollektiv üzvlərinin bir-birini başa düşməsi mümkün olmazdı. Dilin normalılığı onun sistem xarakterindən, dil işarələrinin iyerarxiyasında, bir-birindən asılı və bir-biri üçün şərt olmasındadır. Bu mənada dilin sistemində üzə çıxan geniş planlı norma makronormadır."(1, s.31) Ədəbi dildə norma akademik tərəfindən iki qrupa makronorma və mikronormaya bölünür. Bu normaların fərqli xüsusiyyətləri, onları ayıran səciyyəvi əlamətlər təyin edilir. Makronormada əks olunan faktlar və qanunauyğunluqların obyektiv şəkildə fəaliyyət göstərməsi, mikronormada isə subyektiv müdaxilə əsas faktorlardan sayılır. Ədəbi dildə normanın xalq dilinin faktları əsasında formalaşması, xalq dilinin inkişafı ilə bağlı inkişaf edərək müəyyən normanın yaranma halları, yəni mikronormanın makronun daxilində sabitləşməsi müəyyənləşdirilir. Ədəbi dil tarixinin tədqiqində norma və ona verilən tələblər, normanın özünün sistem təşkil etməsi və bu sistemin forma və məzmun tərəfi xüsusi vurğulanır. Müəllif ədəbi dil tarixində struktur-forma dedikdə, fonetik, leksik, qrammatik yarusları, eyni zamanda orfoqrafik sistemi, funksional xüsusiyyətlər ədəbi üslublar sistemi nəzərdə tutur. Alimin fikrincə, ədəbi dil üslubların inkişafında təzahür edir və formanın verdiyi zəngin material üslublarda öz əksini tapır. Dilin funksional-üslubi inkişafında baş verən dəyişmələr, ictimai-sosioloji faktorlar tarixi kateqoriya kimi ədəbi dilin formalaşmasında əsas götürülür. Ona görə də üslubların inkişafı ədəbi dilin yaranmasında aparıcı olmaqla yanaşı, onun inkişaf mənzərəsidir. Bununla yanaşı qeyd edir ki, ədəbi dilin bu tərkib hissələri bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf edir və bütövün yaranmasında hər ikisi bərabər surətdə çıxış edir. Bu dialektik vəhdətə ədəbi dilin hissələri, yəni ümumi inkişaf kimi yanaşılır. Bu yanaşmada "Üslub bu və ya digər ictimai, ümumxalq mühitində ictimai dərk olunmuş, funksional şərtlənmiş, nitq ünsiyyəti vasitələrinin işlənmə, seçmə və əlaqələnməsinin daxili birləşmiş elə məcmusudur ki, başqa bu cür ifadə üsullarına münasibətdə həmin xalqın ictimai nitq təcrübəsi zamanı ayrı məqsədə xidmət edir, özəl vəzifələr yerin yetirir" müəllifin öz sözləri ilə desək V.Vinoqradovun düsturunu əsas götürür.(4, s.36) Bununla da akademik T. Hacıyev ədəbi dilin yaranmasında mühüm rolu olan üslubların müəyyənləşməsində forma ilə məzmun dialektik rabitəsini əsas götürmüşdür. Onu da qeyd edir ki, üslubların müxtəlif dövrlərdə inkişaf səviyyəsi, yəni ümumxalq dili imkanlarından, eləcə də alınmalardan istifadə səviyyəsi də üslublara təsir edir. Hansı üslubun fəal inkişaf etməsi də ədəbi dilin tarixi inkişafına təsir edir. Ədəbi dilin təşəkkülündə bunları əsas hesab edən alim ədəbi dil tarixinin tədqiqində bunları qarşılıqlı əlaqədə götürür. Lakin onu da xüsusi vurğulayır ki, müxtəlif dövrlərdə hər hansı bir üslubun müəyyənləşməsində əcnəbi dil ünsürləri də xüsusi diferensiallığı ilə seçilir, ona görə də ədəbi dilin inkişafında üslublar eyni dərəcədə iştirak etmir. Milli dilin inkişaf səviyyəsinə uyğun olaraq üslubların inkişafı ilə bağlı aparıcı üslub terminine aydınlıq gətirilir. Tədqiqatçı "aparıcı üslub" dedikdə, dövrün bütün lüğət ehtiyatının, qrammatik quruluş xüsusiyyətlərinin bütöv çeviklik və mükəmməlliyi ilə çıxış etməsini nəzərdə tutur."(s.34) Azərbaycan ədəbi dilin tarixində bədii üslubun tarixi, formalaşması əsas hesab edilərək onun səciyyəvi əlamətləri təyin edilir. Ədəbi dili tarixində bədii üslubu daha çox önə çəkilir. Qeyd edir ki, həmin üsluba aid mətnlər ədəbi dilin gücünü Nəsimidə, Füzulidə olan səviyyədə nümayiş etdirə bilmir. Nizami Xudiyev yazır: "Tofiq Hacıyev ədəbi dil tarixini məhz normanın tarixi kimi öyrənməyin ilk uğurlu təcrübələrini verir" (2, s.4)

Müəllif qeyd edir ki, ədəbi dil anlayışı müəyyən çərçivədə bədii üslub kimi çıxış edir, buna görə də ədəbi dildə başqa üslublara nisbətən bədii üslub baza rolunu oynayır. Qeyd edir ki, əslində ədəbi dil geniş anlayışdır və bədii dil ancaq onun tərkib hissəsi kimi publisist, elmi, rəsmi kargüzarlıq üslubları ilə birlikdə onu inkişaf etdirir. Müəllif bədii əsərlərin dili ilə bağlı müxtəlif fikirlərin olmasına öz münasibətini bildirir. Bədii dildə dialektizmi, jarqonizmi, loru danışıq elementləri ədəbi dilin formalaşmasında müxtəlif ziddiyyətlər yaratması fikirlərini qəbul etmir, bədii üslubun mahiyyətində özünü göstərən elementlər publisist üslubda, elmi üslubda başqa şəkildə büruzə verdiyini əsas götürür. Yəni, hər üslubun özünəməxsus səciyyəvi əlamətləri olmasını sistem kimi qəbul edir, ancaq müəyyən məqamlarda ədəbi dilin inkişafı üçün yeni perspektivləri müəyyənləşdirir və geniş mənada xalq dilindən gələn materialların ədəbi dilin genişləndirilməsini şərh olunur. Qeyd edir ki, ədəbi dillə dialektlər arasında qarşılıqlı mübadilə ədəbi dili zənginləşdirir və onun inkişafında əsas amillərdən birinə çevrilir. Ədəbi dilin cilalanmasında seçmə əməliyyatının aparılması, başqa sözlə onun fonetik, leksik, qrammatik normalarının müəyyənləşdirilməsi xüsusi qeyd edilir. Fonetik, ofoqrafik, leksik və qrammatik cəhətdən normalaşdırılmış nitq bütövlüyü ədəbi dili üçün əsas hesab edilir. Bununla da T.Hacıyevin yaradıcılığında ədəbi dil tarixinin əsas anlayışları olan ümumi danışıq dili, koyne, norma, uzus, yazılı dil, ədəbi dilin formalaşması üçün əsas əlamətlər geniş şəkildə aydınlıq gətirilərək ədəbi dilin təkamülü, inkişaf dövrlərinin daha qədimdən hesab edilir.

## Ədəbiyyat siyahısı

1.Hacıyev T.İ. Azərbaycan dilinin tarixi. I hissə, Bakı, "Elm", 2012, 476 s.
2.Xudiyev N. Azərbaycan ədəbi dilinin tarixi, Bak., Elm və təhsil, 2012 s.4)
3. İsaçenko A.B.. Общее языкознание. M., 1970, s. 503. S. 28.
4. Виноградов В.В. Итоги обсуждения вопросов стилистики. «Вопросы языкознания», 1955, № 1, s. 73. 36.

***Aygün Əhmədova***

***Tofiq Hacıyev və ədəbi dil tarixinin əsas terminləri***

***Xülasə***

Məqalədə Tofiq Haciyevin ədəbi dil tarixinin əsas terminləri ilə bağlı fikirləri təhlil olunmuşdur. Qeyd edilir ki, Azərbaycan ədəbi dilinin tədqiqi və türkologiyanın aktual problemlərinin araşdırılması alimin yaradıcılığının ana xəttini təşkil edir. Xüsusilə, Azərbaycan ədəbi dilinin tarixi onun elmi yaradıcılığının aparıcı qollarından birini təşkil edir. Bu normaların fərqli xüsusiyyətləri, onları ayıran səciyyəvi əlamətlər təyin edilir. Makronormada əks olunan faktlar və qanunauyğunluqların obyektiv şəkildə fəaliyyət göstərməsi, mikronormada isə subyektiv müdaxilə əsas faktorlardan sayılır. Ədəbi dildə normanın xalq dilinin faktları əsasında formalaşması, xalq dilinin inkişafı ilə bağlı inkişaf edərək müəyyən normanın yaranma halları, yəni mikronormanın makronun daxilində sabitləşməsi müəyyənləşdirilir.

***Айгюн Ахмедова***

***Тофик Гаджиев и история литературного языка ключевые термины***

***Резюме***

В статье проанализированы взгляды Тофига Гаджиева на основные термины истории литературного языка. Отмечается, что изучение литературного языка Азербайджана и исследование актуальных проблем тюркологии составляют основное направление творчества ученого. В частности, история азербайджанского литературного языка является

одним из ведущих направлений его научного творчества. Определены различные черты этих норм, характерные признаки, отличающие их. Основными факторами считаются объективное функционирование фактов и законов, отраженных в макронорме, и субъективное вмешательство в микронорму. В литературном языке определяется формирование нормы на основе фактов просторечия, случаи возникновения определенной нормы, т. е. стабилизация микронормы внутри макро.

***Aygun Axmedova***

***Tofiq Hajiyev and the history of literary languagekey terms***

***Summary***

In the article, Tofig Hajiyev's views on the main terms of the history of literary language were analyzed. It is noted that the study of the literary language of Azerbaijan and the investigation of the current problems of Turkology constitute the main line of the scientist's creativity. In particular, the history of Azerbaijani literary language is one of the leading branches of his scientific creativity. Different features of these norms, characteristic signs that distinguish them are determined. The objective functioning of the facts and laws reflected in the macronorm, and the subjective intervention in the micronorm, are considered to be the main factors. In the literary language, the formation of the norm based on the facts of the vernacular language, the cases of the emergence of a certain norm, i.e., the stabilization of the micronorm within the macro, are determined.

***Çapa tövsiyə edən:*** ***Gəncə Dövlət Universiteti***

***Rəyçilər:*** ***prof.T.Quliyev***
***dos. Elvin Atakişiyev***